# Test imtahanın təşkil olunma metodu kimi

**Aydan Əsədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nadyaesed@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** test, imtahan, növ, metod
**Ключевые слова:** тест, экзамен, типы, метод
**Key words:** test, exam, type, method

Müasir psixodiaqnostikanın metodları keyfiyyət baxımından iki cür təsnif olunur: formalaşdırılmış və az formalaşdırılmış. Formalaşdırılmış metodlardan biri kimi də test metodu qiymətləndirilir. Test ingilis dilində yoxlamaq, sınaq etmək, imtahan etmək kimi tərcümə edilir. Test bir və ya bir neçə qısa tapşırıq yolu ilə üzərində sınaq aparılanın özünəməxsus keyfiyyətlərinin müəyyənləşdirilməsi, onun inkişafının gedişini, səviyyəsini, maksimum informasiya toplanması üçün istifadə edilən standartlaşdırılmış ölçü metodudur.

Testləşdirmə standart sual və tapşırıqlar vasitəsi ilə şəxsi keyfiyyətlərin ölçülməsi üçün istifadə edilən psixoloji diaqnostika metodudur. Testləşdirmənin üç başlıca sahəsi vardır: 1) təhsildə - tədris proqramının mürəkkəbliyini və təlim müddətinin müəyyənləşdirilməsi; 2) istehsal sahəsinin inkişafı, mürəkkəbliyi və sürətini müəyyənləşdirmək, eləcə də kadrların peşə hazırlığı və seçilməsinin həyata keçirilməsi; 3) sosiodiaqnostik proseslərin sürətlənməsi məqsədi ilə psixoloji məsləhətlərin verilməsi. Testləşdirmə eyni zamanda fərdin inkişaf səviyyəsi, bilik, bacarıq və şəxsi keyfiyyətlərini üzə çıxarmaq məqsədilə keçirilir. Testləşdirmə üç mərhələdən ibarət olaraq təşkil olunur: 1) testin seçilməsi; 2) testləşdirmənin keçirilməsi; 3) nəticələrin təhlili. Hər üç mərhələnin keçirilməsi və hazırlanması təbii ki, yüksək ixtisaslı, hazırlıqlı peşəkar mütəxəssislər tərəfindən aparılmalıdır.

Testləşdirmənin kökləri, yaranma tarixi çox qədimlərdən başlamışdır. P.X. Dyuba göstərir ki, hələ testləşdirmədən üç min il əvvəl qədim Çin imperiyasında xidməti vəzifələrə qəbul edərkən istifadə olunmuşdur. Qədim yunanlar isə testlərdən təlim proseslərində istifadə edirdilər. Bu testlər fiziki və intellektual vərdişlərin qiymətləndirilməsi üçün keçirilirdi. Sokrat metodunun özüdə ilkin testləşdirilməyə aid ola bilər. Orta əsrlərdə Avropa universitetlərində elmi dərəcələrin və adların verilməsi zamanı da testlərdən istifadə edilirdi. Bununla belə, testləşdirilmənin ilkin başlanğıcı kimi alimlər XIX əsri göstərirlər. XIX əsrin əvvəllərində ruhi xəstələrə və əqli cəhətdən geri qalmış insanlara humanist münasibət göstərilməsi barədə fikirlər meydana çıxdı. Halbuki bu vaxta qədər həmin xəstələr təhqir olunur hətta öldürülürdü. XIX əsrin əvvəllərində əqli və ruhi cəhətdən xəstə olanların intellektinin səviyyəsinin müəyyən olunması lazım gəldi. Bu barədə ilk olaraq fransız həkimi İ.D. Eskizolun xidmətlərini qeyd etmək lazımdır. O, ilk dəfə olaraq əqli cəhətdən geri qalmış insanların müxtəlif səviyyəsini və növlərini müəyyən etmişdir. Burada idiotizmdən normaya yaxın olan səviyyələr meydana çıxdı.

Məşhur ingilis bioloqu Frensiz Qalton isə testləşdirmənin bioloji faktorlara əsasən tədqiqini apardı. Burada irsi faktorların əsaslanaraq valideynləri, bacı və qardaşları yaxın qohumları öyrənməklə antropometrik ölçməni müəyyənləşdirdi. Qalton intellektin inkişaf

səviyyəsini belə yəni, onun aşağı səviyyədə, orta və yaxud da yuxarı səviyyədə olmasını belə irsi faktorlar əsasında olduğunu qeyd edirdi. Frensis Qalton Çarlz Darvinin doğma xalası oğlu idi. Bu baxımdan da o, darvinizm nəzəriyyəsini yaxından öyrənərək onu qəbul edərək intellektin varislik nəzəriyyəsini yaratmışdır.

Avropada alman psixoloqları xüsusi testlər vasitəsi ilə hafizənin, italyan psixoloqu D. Ferrari patalogiyanın öyrənilməsi ilə bağlı testlər hazırladılar. Bütün bunlarla yanaşı testlərin hazırlanması A. Bine və T. Simonun adı ilə bağlıdır. Onlar ilk dəfə olaraq 1904-cü ildə Bine-Simon şkalasını müəyyənləşdirdilər. Bu şkala intellektual inkişafın müxtəlif yaş dövrlərinə əhatə edirdi. Bundan sonra kiçik və böyük qruplar üçün testlər hazırlanmağa və istifadə olunmağa başlanıldı.

Testlərin fərqləndirici xüsusiyyətləri ondan ibarətdir ki, onlar yoxlanılanlardan düzgün cavab almaq, müəyyən edilmiş qısa tapşırıqlar formasıdır. Bütün sorğular, proyektiv metodlar, psixofizioloji metodların tətbiqi zamanı tam düzgün cavablar alınmır. Testlər də müxtəlif əsaslara görə qruplaşdırılır. Bunlar içərisində testlərin forma və məzmuna görə bölgüsü xüsusi yer tutur. Formasına görə testlər fərdi və qrup şəkilli, şifahi və yazılı, blanklaşdırılmış, əşyavi, texniki və ya kompyuterli, verbal və qeyri-verbal olur. Fərdi testlər eksperimentatorla yoxlanılan şəxsin təkbətək, bilavasitə qarşılıqlı əlaqəsi metodudur. Qruplarla test eyni zamanda bir neçə insanla təşkil oluna bilir. İlk dəfə ABŞ-da 1917-ci ildə I Dünya müharibəsində iştirak edən hərbçilərin psixologiyasının öyrənilməsi üçün qrup testləri işlənildi. Yerksin rəhbərliyi ilə yaradılan komissiya çox qısa bir müddətdə hərbi xidmətə çağırılmış 500 minə qədər hərbçinin intellektual inkişaf səviyyəsini , onların hərbi xidmətə etmələrini, kimlərin zabitlik kurslarına göndərilməsini müəyyənləşdirilməli idilər. Qrup şəkilli testlərin mənfi cəhəti ondan ibarətdir ki, proses zamanı yoxlanılanla bilavasitə qarşılıqlı anlama, fərdlərlə əməkdaşlıq etmək onlarda maraq oyatmaq, onu həyata keçirmə imkanı olmur. Şifahi testlərdə yoxlanılan fikrini həm sərbəst şəkildə, həm də istənilən formada ifadə edə bilər. Yazılı testlərdə isə yoxlanılan fikrini test dəftərində, yaxud da xüsusi hazırlanmış blanklarda yazılı şəkildə ifadə edir. yazılı testlərin də həmçinin açıq və qapalı formaları mövcuddur.

Testlərin aşağıdakı növləri vardır: müvəffəqiyyət testi, intellek testləri, kreativlik testi, şəxsiyyət testləri, proyektiv testlər.

Müvəffəqiyyət adı altında qruplaşdırılan testlər adətən təlim və peşə müvəffəqiyyəti testləri və ya didaktik testlər də adlandırırlar. Təlim müvəffəqiyyəti testləri ayrı-ayrı fənlər üzrə mənimsənilmiş konkret biliklərin səviyyəsinin qiymətləndirilməsinə xidmət edir. Bu testlər nəticələrin dəqiqliyi və etibarlılığı baxımından bal sistemi ilə biliklərin qiymətləndirilməsindən daha dəqiq və obyektivdir. Müvəffəqiyyət testləri təhsil müəssisələrində şagirdlər və tələbələr tərəfindən mənimsənilmiş biliklərin səviyyəsini, tədris planı, proqramları və dərslikləri, habelə təlim metodlarını, ayrı-ayrı tədris edən müəllimləri, bütövlükdə pedaqoji kollektivlərin fəaliyyətinin səmərəliliyini və nəticələrini qiymətləndirməyə imkan yaradır. Müvəffəqiyyət testləri intellekt testlərindən fərqlənir. Müvəffəqiyyət testləri mənimsənilmiş konkret biliyin, bacarıq və vərdişlərin diaqnostikasını nəzərdə tutduğu halda, intellekt testləri analogiya, təsnifat, ümumiləşdirmə apara bilmək və s. kimi əqli əməliyyatların inkişaf səviyyəsini aşkara çıxarmağa yönəlmişdir. Müvəffəqiyyət testinə daxil edilmiş suallara cavab vermək üçün sınanılan şəxsin konkret faktları, tarixləri və s. bilməsi zəruridir. Yaxşı hafizəyə malik olan hazırlıqlı və çalışqan şagird çətinlik çəkmədən qoyulan suala düzgün həll variantını müəyyənləşdirə bilər. Əgər şagirdə məntiqi mühakimə qabiliyyəti, təfəkkür əməliyyatları formalaşmamışdırsa, onun intellekt testləri üzərində iş

zamanı bir sıra çətinliklərlə qarşılaşacağı təbiidir. Şagirdlərin ayrı-ayrı fənlər üzərində təlim fəaliyyətinin diaqnostikasının keçirilməsində istifadə olunan müvəffəqiyyət testlərinə daxil edilən sual və tapşırıqlar ilbəil yeniləşdirilir və onları əsasən təcrübəli müəllimlər tərtib edirlər. Psixoloq isə bir mütəxəssis kimi iştirak etməli, tələb olunan formal qaydalara tam əməl edilməsinə və testlərin yararlığının və etibarlığının təmin olunmasına zəmanət verilməlidir. Adətən ayrı-ayrı test fənlərə aid müvəffəqiyyət testləri vahid test batareyalarında birləşdirilir və təlim müvəffəqiyyətinin həm ümumi nəticələri, həm də təmayülü haqqında məlumat əldə etməyə imkan verir. Qeyd etmək lazımdır ki, Müvəffəqiyyət testlərinin tərtib edilməsi digər testlərə nəzərən xeyli asan olsa da, onların tərtibində bir sıra zəruri norma və qaydaların gözlənilməsi vacibdir. Belə ki, testə qoyulan suallar aydın və dəqiq olmalı, proqram üzrə keçirilmiş bütün təlim materiallarını əhatə etməli, əsas anlayışların, qaydaların, qanun və qanunauyğunluqların mənimsənilməsi və s. kimi səviyyəsi haqqında məlumatların əldə edilməsinə təminat yaratmalıdır. Müvəffəqiyyət testlərinin tərtibində bir sıra qaydalar ciddi sürətdə nəzərə alınmalıdır. İmtahanın təşkil olunmasında istifadə olunan müvəffəqiyyət testlərinə verilən bu tələblər olduqca vacibdir:

— test ikinci dərəcəli terminlərlə, mexaniki hafizəyə əsaslanan detallar ilə yüklənilməməlidir.

— suallar dəqiq, qısa və birmənalı olmalıdır;

— elmdə mübahisə doğuran məsələlər testə daxil edilməməlidir;

— sualın birinin cavabı digərinin cavabının tapılmasına kömək etməməlidir;

— hər bir tapşırığa aid cavab variantları düşündürücü, tapmaca xarakterindən uzaq olmalıdır;

Test tapşırıqları öz məntiqi strukturuna görə də müxtəlif ola bilər:

— "nə", "harada", "kim", "nə vaxt" modeli üzrə faktoloji suallar;

— "nədən ötrü", "niyə", "nə üçün" ? tipli funksional xarakterli suallar;

— "nədən", "hansı" hissələrdən ibarətdir? tipli struktur xarakterli suallar;

— buraxılmışları yerinə qoyun tipli konseptual xarakterli suallar.

Biliyin inkişaf səviyyəsini ölçmək üçün tətbiq olunan müvəffəqiyyət testləri yazılı və şifahi formada tətbiq olunur. Yazılı müvəffəqiyyət testlərindən xüsusi tapşırıqların yerinə yetirilməsi vasitəsi ilə ümumi məlumatlılığın müəyyənləşdirilməsi məqsədi ilə istifadə olunur. Belə testlər bir qayda olaraq sifariş əsasında tərtib olunur, xüsusi blanklarda yerləşdirilən suallar seriyasından ibarət olur. Hal-hazırda Respublikamızda ali və orta ixtisas məktəblərində qəbul zamanı istifadə olunan müvəffəqiyyət testləri buna misal ola bilər. Yazılı müvəffəqiyyət testlərinin əsas üstünlüyü ondan ibarətdir ki, onlar eyni vaxtda yüzlərlə şəxsi test sınağından keçirməyə imkan verir.

Yazılı testlərdən fərqli olaraq şifahi testlərdə suallar seriyası şifahi və yaxud da müsahibə formasında qoyulur. Onlar tətbiq baxımından xeyli asandır. Nəticələri qısa müddətdə müəyyənləşdirmək imkanı verir. Gənclərin peşələr üzrə müxtəlif təhsil müəssisələrində yerləşdirilməsi məqsədi ilə geniş istifadə olunur. Hal-hazırda inkişaf etmiş xarici ölkələrdə 250-dən çox peşə üzrə belə testlər işlənilir. Peşə müvəffəqiyyəti testləri nəticələrin obyektivliyi, tətbiqinin sadəliyi baxımından əhəmiyyətlidir və müxtəlif peşə sahələrində çalışan işçilərin attestasiyasının, vakant yerlərin tutulması üçün müsabiqələrin keçirilməsində və ixtisas dərəcələrinin verilməsində artıq xeyli müddətdir ki, uğurla tətbiq olunur.

İmhanın keçirilməsi zamanı tətbiq olunan testin düzgün olması və zərər vurmaması üçün bir sıra qaydalara əməl olunması olduqca vacibdir. Hətta Amerikan Psixoloqlar Assosiasiyası testlərdən istifadə olunması və yayılması ilə bağlı olaraq "psixoloqun etik normaları" kimi

qaydalar qəbul etmişlər. Buradakı prinsiplərdən biri də testin nəticələrinin razılaşdırılmadan yayılmasıdır, hansısa mətbuatda çap olunması və s. kimi halların aid olunması. Bu kodeksdə tələblərdən biri kimi qərərsizlik, zərər vurmamaq, məxfiliyin qorunmasından ibarətdir. Testin keçirilməsində nəzarətçilərin səriştəlili, peşəkarlığı nəzərə alınmalıdır. Bu həmdə ona görə vacibdir ki, testlərdən səhv istifadə edilməsin. Hətta müxtəlif aspektli testlərin keçirilməsi üçün fərqli təsnifatlar aparılmalıdır. Məsələn ayrı-ayrı fərdlərin intellekt testlərinin, eləcədə şəxsiyyətin keyfiyyəti ilə bağlı testlərin keçirilməsi üçün mütəxəssisdən ən azı psixoloji hazırlıq və kurs keçməsi tələb olunur. Tələbələr test keçirdikləri zaman onların üzərində səriştəli mütəxəssisin nəzarəti lazımdır.

Uşaqlarla keçirilən testlər bir qədər çətinliyi ilə seçilir. Onlara keçiriləcək test barədə əvvəlcədən xəbər vermək lazımdır. Hətta belə bir eksperimentdə keçirilmişdir ki, iki qrup ayrılır. Onların birinə qabaqcadan test olunacaqları barədə məlumat verildiyi halda digər qrupa isə məlumat verilmir. Nəticə də isə birinci xəbər verilən qrupun testdən əldə etdikləri nəticələri digər xəbər verilməyən qrupun əldə etdikləri nəticələrdən daha yüksək olmuşdur. Belə ki, uşaqların emosional sferalarının zəif olması ilə əlaqəli olaraq onlara qabaqcadan xəbər verildikdə onlar özlərini daha rahat və hazırlıqlı hiss etmiş olacaqlar. Eləcədə testin rahat keçirilməsi üçün əlverişli və uyğun şərait təşkil olunmalıdır. Onların diqqətlərinin yayındıracaq halların qarşısını əvvəlcədən almaq lazımdır. Uşaqlarla hansısa xüsusi psixoloji testlər keçirilən zaman valideynlərin razılığı alınmalıdır. Kiçik yaşlı uşaqların testlərinin nəticələri barədə onların valideynləri məlumatlandırılmalıdır. Eyni zamanda məktəb müəllimləri və psixoloqlar bilavasitə onlara aid olan məsələlər barədə məlumatlandırıla bilərlər. Əgər lazım gəlsə və qarşılıqlı razılığa əsasən alınmış nəticələr birlikdə müzakirə edilə bilər.

Məktəbdə müxtəlif pedaqoji tapşırıqları tətbiq etmək üçün adətən test formasından istifadə edilir. Bu cür tapşırıqlar həm öyrətmə, həm də nəzarət xarakterli daşıya bilir. Öyrətmə tapşırıqları, testləri böyük öyrətmə potensialına malik olduğundan öyrənənlər və öyrədənlər tərəfindən geniş istifadə olunur. Nəzarət tipli tapşırıqlar, testlər öyrədənlər və tədris prosesinə nəzarət edən qurumlar tərəfindən tədrisin müəyyən bir mərhələsində və ya tədris prosesi başa çatdıqdan sonra öyrənənlərin hazırlıq səviyyəsinin və strukturunun diaqnostikası, hazırlığın kəmiyyət və keyfiyyətinin yoxlanılması üçün tətbiq edilir.

**Məqalənin aktuallığı.** Müasir dövrdə istər ali və orta ixtisas məktəblərinə qəbul, istərsə də bu təhsil müəssisələrində semestr imtahanlarının test üsulu ilə keçirildiyini və bu prosesin imtahanların obyektivliyinə, şəffaflığına xidmət etdiyini nəzərə alsaq, məqalə aktual hesab olunmalıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə testləşdirmənin yaranma tarixindən söhbət açılmaqla yanaşı, onun standartları və fərqləndirici xüsusiyyətləri də göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin rəhbərləri, müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əliyev R., Əliyeva G., Əliyev C. Praktik psixologiya məsələləri. Bakı: Elm və təhsil, 2011.
2. Əliyeva Z. Psixi inkişafın psixodiaqnostik tədqiqi: Metodik vəsait. Bakı. 2016.
3. Mehrabov A.O., Bəylərov E.B. Testologiya və müasir təhsil. Bakı: Adiloğlu, 2003.

**А. Асадова**

## Тест как метод организации экзаменов

## Резюме

Метод тестирования очень популярен. Учителя могут легко использовать тест, когда хотят сдавать экзамен. Каждый тест является правильным ответом. Оценка оценивает уровень знаний ученика.

**A. Asadova**

## Test as method of to be organizing

## Summary

The method of test is famous a lot. When teachers would like to exam, they will use this method so easy. There is one right answer of every test. Tests can measure of education level of students.

**Redaksiyaya daxil olub:** 15.02.2018